## DİLÇİLİK

**UOT 81 41; 801.7**
**https://doi.org/10.59849/2311-8482.2024.1.46**

**FİRUDİN RZAYEV***

# QƏDİM TÜRÜKKÜ PROTOTÜRKLƏRİ İLƏ BAĞLI TANRILARIN, NAXÇIVAN ƏRAZİSİ TOPONİMLƏRİNDƏ İZLƏRİ

*Məqalədə əski türk mifik təfəkküründə xüsusi yeri olan Türükkü türklərinin mifoloji inanclarında yer alan Tork, Tork Anqex, Tarku qədim tanrı adlarının Naxçıvan ərazisi toponimlərindəki izlərindən bəhs olunur. Qədim yazılarda adı keçən bu tanrı miflərinin tarixi m.ö. IV minilliyə söykənməklə, ərazi toponimik adlarında günümüzə qədər qalmışdır. Bu qədim mifin tarixi proseslərdə Türükkü tayfa adında yer alması, Naxçıvanla bağlılığı indiyədək Azərbaycan və türk alimləri tərəfindən tədqiqi və adların izahı verilməmişdir. Məqalədə qədim Naxçıvan ərazisi toponimlərinin oykonim, hidronim və oronim qatlarında bu tanrı adının mövcudluğu dil və tarixi faktlar əsasında təsdiq edilir.*

*Tədqiqatda Naxçıvan coğrafi arealında bu miflə bağlı toponimlərin etimoloji izahları verilir. Tork, Tork Anqex, Tarku tanrıları adlarının prototürklərlə bağlı adlarda qalması bu mifik inancın qədimliyini sübut edir. Azərbaycan, Naxçıvan, Sibir, Avar və digər türklərdə bu adın yeri məqalədə elmi faktlarla əsaslandırılır.*

**Açar sözlər:** *Tork, Tork Anqex, Tarku Azərbaycan, Naxçıvan, Sibir, Avar, oykonim, oronim, hidronim.*

### Giriş

Azərbaycanın tarixi torpaqları olmaqla onun ayrılmaz tərkib hissəsi olan qədim Naxçıvan-Naxər ölkəsi ərazisi ən qədim qaynaqlarda öz yerini almaqla bərabər, günümüzdəki toponimik sistemdə də o dövrə aid qədim türk mifoloji Tanrı inanclı adlarını da özündə qoruyub saxlaya bilmişdir. Bildiyimiz kimi hər hansı bir xalqın etnik qrup şəklindən bir xalq kimi formalaşması tarixi minilliklərin siyasi prosesi olmuş, bu formalaşmada əsasən təbiətdə baş verən hadisələrin, səma cisimlərinin, ətraf aləmdə baş verən hadisələrin dərk etmə fövqündə mifik təfəkkür amilləri meydana çıxmışdır. Təbii ki, bu amillərə uyğun "xeyir" və "şər" istiqamətli mifoloji inanclar da formalaşmış, bu inanclar onların adət-ənənələrində yer almış, bu tayfa davranışlarına müəyyən istiqamətlərdən təsir etmişdir. Bir xalq şəklində formalaşma prosesində də bu mifləri özlərində yaşatmış bu xalq, öz inanc və adətlərini varislərinə də aşılamaqla bərabər, digər xalqlardan fərqlənmiş, işğallar dövrü başqa xalqlara da bu mifoloji baxışlar təsir gücündə olmuşdur.

### Tarixi mənbələrdə Türükkü türkləri

Antik müəlliflərin əsərləri, "Ümumdünya tarixi" kitabı və qədim mənbələrdə biz bu tayfaların Urmiya gölündən şimala doğru Araz çayı axarlarında aborigen tayfalar olmaqla, özlərinə məxsus təbiəti və kainatı dərkdə öz inanclarına sahib olduqları tarixi faktlarına rast gəlirik. Lakin türükkülərin adı çəkilməsə də, m.ö. IX əsr hadisələrindən bəhs edərkən Tarkvin şəhər adının eyni adlı etnosdan gəlib, onların Tarxan nəslindən olduğunu göstərir. Qaynaqlar isə, tarkvinlərin tus-etrüsk türklərinin varisləri olduğunu qeyd edir [17, s. 632-633].

Biz S.Klyaştornı, V.Livşiç, V.Radlov, V.Şot, N.Biçurin A.Bernştem və başqa bu kimi xeyli sayda tədqiqatçıların türk ərazilərindəki bütün mədəniyyətləri məhz bu xalqlara mənsub mədəniyyət kimi verdiyini, onun m.ö. minilliklərə aid olduğunu yazsalar da, dəqiq tarix göstərmirlər. Bu müəlliflər və xeyli sayda tədqiqatçıların yazılarında türükkülərlə bağlı qədim runi yazılarının türk dilində oxunduğu da qeyd edilir. Müəlliflər öz əsərlərində bu türklərin dəfn adətləri və mifoloji inanclarının ərazi arxeoloji mədəniyyətində mövcudluğu məsələlərinə toxunulmaqla bərabər, bu mədəniyyətlərin türklərə aidliyini dil faktlarına istinadən tam olaraq sübut etmişlər. Onlar bütün bu mədəniyyətləri, mifoloji inanc əlamətlərini məhz bu xalqlara mənsub mədəniyyət kimi vermiş, lakin, mövcud mifoloji baxışların hansı türk tayfa birliyi ilə bağlılığını göstərməmişlər [2, s. 377-396; 6, s. 4, 35-41].

Biz **Türükkü** tayfalarını mifik inanclarını araşdırarkən bu tayfaların m.ö. V-III minilliklər tarix səhnəsində olmaqla, Mitan dövlətinin tərkibində olan Naxər ölkəsində yerli tayfalar olduğunu görürük. Mənbələrdə isə, **Turukku** sonrakı proseslərdə türükkü yazılışlarında qeydə alınan bu türk tayfalarının özlərinə məxsus ölkələri olduğu göstərilir. **Turukki** ölkə adı, bu mənbələr və qədim Assur-Vavilon mənbələrində, salnamə yazılarında tayfa adı kimi yer almışdır. Adlar təbii ki, bu mənbə sahiblərinin dil imkanları hesabına **mâtı tu-ru-ki-i-**"türükkü ölkəsi" şəklində mövcud dilin yazılış formasında göstərilmişdir. Lakin rus siyasətinə uyğun olaraq İ.M.Dyakonov bu sözü yalnız tayfa adı kimi qəbul etsə də, onların prototürk tayfaları olduğunu əsərdə göstərməmişdir [14, s. 132].

K.Riemşnayderin "Akkad dili" kitabındakı mətnlərə diqqət edən F.Ağasıoğlu, burada türk adının fonetik oxunuşunun **tu-ru-ki** olduğunu, assuroloqların isə, onu **Turukku** şəklində transkripsiya edərək, Assur

ləhcəsinə uyğun geminat (qoşa) samitlə oxunduğunu yazmışdır. Müəllif, bu adın Adadnerarinin (XIV əsr) yazılarında da təkrarlandığını göstərərək **Turuki** ölkəsinin **tu-ru-ki-i** şəklində qeyd olunduğunu, bu səhvin alman aliminin dərsliyində də **Tu-ru-ku-tum** şəklində özünü göstərdiyini qeyd edib 25 №-li tabletin 9 və 10-cu sətirlərinin (9) **Li-da-a-ia awilum Tu-ru-ku-u**, (10) **u awilum Tu-ru-ku-u şa it-ti-şu *şəklində*** türklərə aid olduğunu faktlarla sübut etmişdir [3, s. 40-46]. Əgər diqqət etsək, burada tayfa adı ilə yanaşı bu adda Turuk Tarku sadəcə səs dəyişimi ilə (**a=u**) həm də mifoloji tanrı adını özündə daşımaqdadır.

Biz mövcud Azərbaycan tarixinə və etnogenez məsələsinə, eləcə də **Türükkü** tayfalarına dair gərəkli elmi məlumatlara Y.Yusifovun da yazılarında rast gəlirik. Onun bu istiqamətdən fikirləri elmi baxımdan xüsusi əhəmiyyət daşıyır və Assur yazılarında Urmiyadan cənubda **"Turukki ölkəsi"** adını göstərən müəllif, burada I Şamşi-Adadın **Tukriş** ölkəsindən xərac aldığını qeyd edir ki, bura qədim Naxər-Naxçıvan ölkəsi əraziləri idi. Burada Akkad qoşununa qarşı vuruşan 17 tayfadan birinin də **Tourki** turkilərinin olduğu göstərilir. Bununla bərabər müəllif, m.ö. 2104-cü ildə (m.ö. III minillik) kutilərin taxtında türk **Tirikanın** oturduğunu da xüsusi olaraq qeyd edir [18, s. 85, 254]. Bəs bu tayfalar hansı inanclara sahib olmuş və onların inancları nə ilə bağlı olaraq məişətlərində və mənbələrdə yer almışdır?

**Türükkülərdə qədim türk mifoloji inancları**

Biz Naxçıvan ərazisi toponimik sistemində yer alan bu tayfalara məxsus qədim miflərdən olan **Tork, Tork Anqex, Taurki** və **Tur** qədim türk mifləri ilə qarşılaşırıq ki, bunlar Q.Qeybullayevin yazılarında da yer alır. O, hər bir ölkədə yaşayan xalqların özünəməxsus məişət və inancı olduğunu əsas götürərək, türükkülərin inancında yer alan **Tork Anqa** və **Taurki** qədim türk mifləri məsələsinə fərqli toxunmuşdur. Burada Azərbaycanın qədim Mitan dövlətində və hettlərdə **Tork/Taurki** və **Anqa-**"Şöhrətli An" qədim miflərinin yer aldığını göstərən müəllif, **An** mifik inancı məsələsinə toxunmaqla, onun kassi türklərindən qədim türklərə və şumerlərə adladığını yazır [8, s. 52, 56, 93]. Qeyd edək ki,Azərbaycan, Türkiyə və altay, Orta Asiya, digər türklərdə də **Ana** sözümüz "Kiçik yaradan" mənasında məhz bu tanrı adından gəlməklə, Naxçıvan toponimik sistemində xeyli adda iz qoymuşdur ki, aşağıda bu adla bağlı ətraflı məlumat verəcəyik.

Biz mövcud tanrı inanclarının Azərbaycan alimlərinin tədqiqatında yer aldığını görürük və buradakı elmi fikirlər də xüsusi elmi əhəmiyyət daşıyır. Bu yazılarda Akkad qoşununa qarşı vuruşan 17 tayfadan biri **Tourki** türklərinin olduğu göstərilməklə, onların inancında **Tork, Tarku** tanrılarının yer aldığı xüsusi olaraq vurğulanır [18, s. 85, 254]. Əgər diqqət etsək, kutilər və iki Türk ölkəsi (**Turukki və Tukriş**) Türk tanrı adını dialekt fərqləri ilə **Tork, Tarku** kimi tələffüz edirlər və çar şəxs adları da bu inancla türk tanrı adından yaranmışdır. Bununla bərabər biz m.ö. III minillikdə də prototürklərin inancında ***Tork, Tork Anqex, Tarku*** kimi Tanrı adlarına rast gəlirik ki, bu adın **Tarku** tanrı adından yarandığı qeyd edilmiş, bu adlar qədim mənbələrdə də öz əksini tapmışdır [17, s. 632-633].

Biz Sovetlər dövrü mifoloji inanclara aid yazılmış ensiklopedik əsərlərdə də türükkülərə məxsus **Tork, Tork Anqex, Tarku, Tur** kimi tanrı adları və inancının yer aldığını görürük. Bu inancın türklərə mənsub olduğu xeyli mənbədə özünü təqdim etsə də, qeyd edək ki, bu tanrı adları da rus siyasi məqsədi ilə ensiklopedik əsərlərə erməni və fars mifləri kimi daxil edilmişdir [11, s. 521, 534]. Lakin biz Assur yazılarında Urmiyadan cənubda qeyd olunun "Turukki" və Tukriş ölkələrində **Tarku, Tork** adda tanrıların mövcud olduğunu görürük [14, s. 139] ki, bu inanclar, m.ö. V-III minilliklər tarix səhnəsinə yer almışdır. Əgər bu tarixi qaynaqlara istinad etsək, bu tarixdə **Turukki, Tukriş** adlı həm iki türk ölkəsi mövcud olmuş, həm də onların **Tork, Tarku** tanrılarına inancları olduğu göstərilir. Bu sadəcə Azərbaycan türk tarixi və mifini bu xalqdan uzaqlaşdırmaq siyasəti idi və onlar m.ö IV minillikdə etnik qrup kimi belə hər hansı bir antik müəllifin əsərində qeyd edilmirlər (-F.R.).

Təbii hər bir ölkənin o dövrdə özünə məxsus inancları da olmuşdur ki, **o dövrdə (m.ö. IV minillik) nə erməni, nə də fars tarix səhnəsində yox idi. Bu sadəcə Azərbaycan türk mifindən onların tarix oğurluğu olmaqla, bu mifoloji qarışıqlıq Rusiya dövlətinin siyasi oyununa xidmət edirdi**. Bəs **Tork, Tarku** tanrılarının adı ilə bağlı adlar hansı xalqlar arasında yayılmışdır?

Biz Türükkü türkləri ilə bağlı Naxçıvan ərazisi toponimik sistemində xüsusi yer almış **Tork, Tork Anqex** tanrı mifoloji inancları ilə də qarşılaşırıq.

Biz dünya atlasında bu tanrı adı ilə bağlı Türkeş, Turka, Turki, Turku, Tarko-Sale, Terek-Say, Turakko, Turak kurqan, Terenka, Torqay, Torqo, Turqay kimi yüzə yaxın coğrafi ada Azərbaycan, Orta Asiya (qazax, qırğız, özbək, türkmən), Altay, Sibir, Volqaboyu və s. türklərin ərazilərində təsadüf edirik [9, s. 26-38, 54-57, 61, 74]. Bu göstərilən coğrafi ad toplusu **Türükkü** tayfasının mifik düşümündə və məişətində onların **Tarku, Tork Anqe** adda tanrılarının yer aldığını tam sübut edir ki, bu mifin **Tarku, Tork/Taurki** yazılışlarında mənbələrə düşməsi isə qeyd etdiyimiz kimi ayrı-ayrı xalqların dil imkanları, yazılış qaydalarından irəli gəlirdi. Sual oluna bilər fars və ermənilər hansı tarixi dövrlərdə bu qədər türk ərazilərinə yayılmışdır? Təbii ki, bu heç bir mənbədə qeyd edilmir. Lakin bu adlar eyni en dairəsində, İpək Yolu üzərində yerləşən prototürklərin coğrafi adlarında təkrarlanır ki, bu da mövcud mifik inancın qədim türklərə aid olduğunu tam olaraq sübut edir. Bu miflərin erməni və farslarla heç bir əlaqəsi olmamış, bu sadəcə onların tarix və mifoloji inanc oğurluqları

idi. Bəs bu mifoloji inanclar özünü necə təqdim edir, hansı funksiyaları yerinə yetirirdi?

Biz qədim türklərdə şamançılıqla bağlı "Avesta" yazılı dastanında **Tarku** tanrı adının **Tura** yazılışında təkrarını görürük ki, burada ad **Tur** yazılışında turanlılara aid olaraq göstərilir. Bu inanc tanrısı eyni kökdən olub **Günəş** və **Ay** inanclarında olan **Asər** türklərini, **On Asay**-Azərbaycan, **Kiçik Asay**-Türkiyə, **Orta Asay**-Qazax, Qırğız, Özbək, Türkmən türklərini **Turan** birliyində ortaya qoyan, bu eyni köklü və eyni dilli xalqları birləşdirən tanrı idi. O, bu tayfaları bir araya gətirən **Yima** tanrısının oğludur və Çinə qədər Turanı birləşdirir. Lakin, rus, xristian faktoru eyni kökdən gələn bu mifi siyasi məqsədlə bu dəfə həm də farslara aid etmiş [11, s. 521, 534], **Asay sözü isə Asiya şəklin salınmaqla türk mifindən uzaqlaşdırmışdır (-F.R.).** Əgər mövcud miflərin tarixinə diqqət etsək, bir daha təkrar edək ki, o dövrlərdə (m.ö. V-III minilliklər) nə fars, nə də ermənilər tarix səhnəsində yox idi, onların xalq kimi formalaşması m.ö. II yüz ilin sonlarından eramızın XVIII əsrinə qədər davam etmişdir [17 s. 219-224; 18, s. 72-91]. Qeyd etmək istərdik ki, bu tayfaların da tarixi, siyasi proseslərdə iştirakı, məskun olduqları əraziləri, dili, əsasən də Naxçıvanla bağlılıqları tədqiqatçılar tərəfindən tam tədqiq edilməmiş, buna görə də problem mübahisəli şəkildə qalmaqla, yekun elmi nəticə əldə olunmamışdır. Lakin, qədim qaynaq məlumatları və tədqiqatlardakı elmi nəticələrin **Türükkü** tayfa adı ilə bağlılığı fikirlərinin müqayisəli təhlili, istər bu tayfa adının, istərsə də bu mifin qədim türklərə aidliyini tamamilə sübut edir [13, s. 129-148].

Biz, m.ö. IV minillikdə salnamə yazılara düşən **Türk** tayfa adının adlanmasında onların tanrı panteonuna daxil olan **Tork tanrı** adına rast gəlirik. Bu m.ö. V-IV minilliklərə aid **Türükkü** mifoloji inancı, Mitan dövləti türklərinin mifoloji inancında da **Tork tanrı** adı kimi təkrarlanır [11, s. 521]. "Ümumdünya tarixi" kitabında türükkülərin adı çəkilməsə də, m.ö. IX əsr hadisələrindən bəhs edərkən, Tarkvin şəhər adının eyni adlı etnosdan gəlib, onların Tarxan nəslindən olduğunu və bu adın **Tarku** tanrı adından yarandığı qeyd olunur. Qədim qaynaqlar isə tarkvinlərin tus-etrüsk türklərinin varisləri olduğu göstərilir [14, s. 418-435; 17, s. 632-633].

Bu mifoloji inanc **Türk** tayfa adının yaranmasında da yer almış, lakin qədim **Tork** tanrı adı eyni variantda təhrif edilmişdir. Avestada **Türk** tayfa adının **"Tur"** yazılışı burada siyasi məqsədlə yenə də farslara aid edilsə də, tarixi qaynaqlara diqqət edildikdə, Türk-Türrükkü tayfalarının tarix səhnəsində olduğu m.ö. V-IV minilliklərdə hələ hazırda özlərini "Fars" adlandıran bu etnik azlıq, o dövrdə xalq kimi formalaşmamışdır. Yalnızı m.ö. VIII yüzillikdə bu tayfa Midiyanın tərkibində kiçik Parsua əyaləti kimi göstərilmişdir [17 , s. 591-594]. Qeyd edək ki, o dövr hələ fars dili də tam formalaşmamışdır və bu "fars dili" tarixi prosesi yalnız XVIII əsrin sonlarında, əsasən XIX əsrdə dil kimi sabitləşməyə başlamışdır [14, s. 34-41].

Daha bir tarixi faktı da diqqətə çatdırmaq istərdik ki, **Türükkü** tayfalarının mifik inanclarını araşdırarkən bu tayfaların m.ö. V-IV minilliklər Mitan dövlətinin tərkibindəki Naxər ölkəsi tarixi dövründə də, friq ermənilər tarix səhnəsində olmamış, friqlər balkanlarda olduğu dövr hazırkı uydurma "ermənistan" ərazisi tarixi qaynaqlarda qədim Naxər ölkəsinin torpaqları kimi göstərilir [17, s. 630-637]. Bunu ərazidə mövcud olmuş, arxiv sənədlərində qeydə alınan xeyli sayda coğrafi adlar da sübut edir.

Türükkü tayfalarına məxsus **Tork Anqe** tanrısı da özünəməxsus inanc daşıyıcısı olmuşdur. Bu tanrı mənbələrdə Azərbaycanın qədim Mitan dövləti xalqlarının mifoloji inancında ruzi-bərəkət gətirən və bu istiqamətdə ruzi verən bitkiləri də yetişdirərək insanların ehtiyacını ödəyən bir Tanrı idi. Bu inanc türklərdən, türk Hett dövləti mifinə də adlamışdır ki, biz hetlərin türklər olduğuna yetərli tarixi faktlar göstərmişik (14, s.186, 214-217). Bu Tanrı həm də daş üstündə qartal rəsmini çəkən onu daş yaddaşında əbədiləşdirən mifoloji inanc **Tanrısı** olmuşdur.



**Bu iki başlı Qartal inancı Mitan dövləti inancında gəmilərdə də simvolik rəsm olaraq öz yerini alırdı** (11, s. 521). Biz aşağıda Mitan, Manna, Midiya və digər dövlət inanclarımızda bu mifdən ətraflı bəhs edəcəyik ki, bu mif qədim türklərdən öz varislərinə adlamış mifoloji inanclardandır (-F.R.).

İstər mənbə məlumatlarının istərsə də digər ensiklopedik əsərlərin hazırlanmasında sovetlər siyasəti yalnız

xristian "elm adamlarını" bu işə cəlb etməklə, türklərə aid istənilən mifi başqa xristian tayfa və etnik qruplarına aid kimi göstərmişlər. Bu baxımdan bu siyasi oyunda **Turk** və **Anu** türk tanrısı da "Dünya xalqlarının mifi" ensiklopedik əsərlərinə "Tork-Anqax", "Turk-Anqaxa", "Turk-Anqex" yazılışlarıyla erməni mifi kimi əsərlərə daxil edilmişdir. Lakin elə bu səhifədə göstərilən mifin Mitan, Hett dövlətləri xalqlarının mifində də yer aldığı, bu tanrı adının onlarda **Tarku** və **Turqi** yazılışında tanrı olduğu qeyd edilir. Bildiyimiz kimi Mitan dövləti Azərbaycan ərazisində türk dövləti idi və Hett yazılı mətnləri də türk dilində olmaqla, bu dövlətin də türk dövləti olduğu mətnlər əsasında tam təsdiq edilmişdir [14, s.129-147,]. O dövrdə isə **friq, briq-"ermənilər"** hələ tarixdə yox idi.

M.ö. VI minillikdə mənbələrdə istər türk, istər şumer tanrılarından biz Türükkü tayfaları inancındakı ***Tork Anqex*** mifoloyi inancında yer alan **Anqex-Anı** tanrı adının şumer mifində də təkrarını görürük ki, bu Kassi türklərinin şumerləri işğalı dövründə, onlardan şumer mifinə adlamışdır [4, s. 130-131].

Türklərdəki **Tork Anqex** ilk yaradan kimi verilir və şumerlərdə "Mən ilk yaranan **Anın** Kiqalda açan çiçəyiyəm" ifadəsi ilə şumer yazısında təsvir edilir. Bu mif əsasən m.ö. V-IV minilliklərin Tanrı panteonunda yer alır. Lakin biz onun həm də m.ö. III minillikdə bu ərazidə yaşayan tayfaların da mifində təkrarlandığını görürük, burada **Anu** yazılışlı ilahə-yaradan tanrı qeyd edilir [7, s. 120].

Elmi baxımdan xüsusi əhəmiyyət daşıyan daha bir tarixi fakta da diqqət etmək istərdik. Bir zamanlar Azərbaycan ərazisi olmuş Suximi ətrafında yaşayan Azərbaycan əhalisinin mifik təfəkküründə biz **An/Anu** tanrısını **Anana** yazılışında tanrı-ilahə kimi görürük. O, **Anatavr** qalasına sahib olmaqla, bu tanrı qalasında oturur [10, s. 75, 647-648; 11, s. 640.]. Diqqət etsək, **Anana** ilahə tanrısı müasir dilimizdə **Ana+na** yazılış formasındadır ki, **Ana** sözümüz "Kiçik yaradan", **na** sözü isə qədim türk dillərində "verdi, bağışladı " mənasında "Kiçik yaradanın bağışladığı" kimi izah olunur. Bu inancla bağlı biz Naxçıvan ərazisi toponimik sistemində **Ana+bat-**"An tanrısının məkanı", **Ana+qut-**"Qüvvətli Anu", **An+sır** "Anın işığı", **Kolanı** Kol+an+ı-"Doğma Anu kolları" mənasında olunduğunu görürük. Bu baxımdan **Ban+an+yar** "Anu soyunun işığı", Ən+dəm+ic-"Şanlı, zəkalı Anu", İl+**An** dağ-"Anu yurdunu" dağı, kimi adların da təkrarını görürük ki, bunlar An/Anu türk mifi ilə bağlı adlardır [13, s. 81-89, 269 s]. Bu kimi xeyli adlar ərazinin oronimik və hidronimik adlarında da təkrarlanır

Biz Naxçıvan ərazisindəki məzarlıqlarda baş daşlarında Xəzər türklərinə məxsus altı guşəli ulduz, Oğuz türklərinə məxsus damğa işarələr, Qaraqoyunlu, Ağqoyunlu türk dövlət qurumlarının rəmzi olan qoç daşlarla rastlaşırıq. Bütün bu tarixi daş yazılı mənbələr ərazinin qədim türk yurdu onqonların və rəmzi işarələrin, eləcə də türk miflərinin Ana yurdu olduğunu bir daha sübut edən tarixi faktlardır.

Oykonimləri formalaşdıran sözlərdəki Tanrı adlarının qədim türklərdə təkrarlanması faktları da Naxçıvan Muxtar Respublikasının oykonimlərində qeydə alınır və bu Tanrı adları əski salnamə, mixi yazılarda da yer alır.

Biz bu miflə bağlı təkcə Naxçıvan ərazisi etnooykonimlərində Turikan, Türküt, Türkan (2 kənd), Tirkeş, Türklü, Tərəkə, Türkəli, Terekevit (3 kənd) adda 11 məntəqə adına rast gəlirik ki, onların etimoloji izahları da tam türk dilindədir. Bu tayfa adlı məntəqələr eynilə Turkan, Türkədi, Türkəçi, Türkəncil, Türklər, Türkmən, Türkoba kimi Azərbaycan ərazisi məntəqə, qala adlarında, Tarakçı, Taraklı, Terke, Terken, Turan, Turkut, Türkeli, Türktanır (Türk-Tanrı-F.R.) kimi isə, təkcə Türkiyədə 17 məntəqə adlarında bu mifoloji adları daşımaqdadır [1, 47, 49-50]. Bu cür adlar nə o dövr fars, nə də balkanlarda friqlər ərazilərində qeydə alınmır. **Bu tarixi faktlar fars və ermənilərin türk tarixindən tarix oğurluğunun sübutlarıdır.**

Göstərilən mifik adlar dünya atlasında Türkeş, Turka, Turki, Turku, Tarko-Sale, Terek-Say, Turakko, Turak kurqan, Terenka, Torqay, Torqo, Turqay kimi yüzə yaxın coğrafi ada Azərbaycan, Orta Asiya (qazax, qırğız, özbək, türkmən və s. türklər), Altay, Sibir, Volqaboyu türklərində də təsadüf edirik [9, s. 26-38, 54-57, 61, 74, 308-311]. Bu adlar eyni en dairəsində, İpək Yolu üzərində yerləşir və bu miflərə tarixi müqayisəli yanaşma, qədim Naxər-Naxçıvan ərazisindən bu miflərin digər ərazi və xalqların mifinə yayımını tam sübut edir.

**Nəticə**

Bütün bu məlumatları ümumiləşdirərək, biz mövcud faktlara əsasən nəticə olaraq deyə bilərik ki, bu tayfa inancındakı **Tork, Tork Anqex, Tarku, Tur** kimi tanrı inancları türükkülərdə m.ö. IV minillikdən də qabaq tarix səhnəsində yer almış, özlərinə məxsus xüsusi inanclar olmuşdur. Naxçıvan ərazisinin 1590, 17-cı ilə qədər təkcə oykonimik sisteminə nəzər salsaq, burada beş yüzdən artıq oykonim, oronim, hidronimik adların bu mifik inanclarla bağlı olduğunun şahidi oluruq ki, bu tarixi faktlar göstərilən mifoloji inancın türklərlə bağlılığını tam təsdiq edir [5, s.159-183; 12, s. 25-36].. Bütün bunlar doğrudanmı bir təsadüfün nəticəsidir? Təbii ki, bu belə deyil, bu qədim ərazinin türk mifoloji baxışlarının Ana yurdu olduğunu və şumer mifoloji mədəniyyətinə də təsir etdiyini ortaya qoyur.

Sonrakı dövrlərdə bu tayfaların tayfa şəklinə düşməsi tarixi prosesində bu inanc həm də **Türükkü** tayfa adına çevrilmiş, göstərilən mifoloji inanc formaları tarixi proseslərdə artaraq çoxallahlıq kimi özünü

göstərmişdir. Yuxarıda da qeyd etdiyimiz kimi, bu mifoloji inanclar Mitan, Manna, Midiya qədim Azərbaycan türk dövlətlərində, türk "Zərdüştlük" dinində də əsas inanclar olmuşdur. Bu fikrimizi günümüzdə belə **Allah** adı ilə yanaşı **Tanrı, Xuda, Tək əl** inanclarımızı məişətimizdə daşımağımız da bir daha təsdiq edir.

## ƏDƏBİYYAT


1.Azərbaycan SSR-nin qısa toponimlər lüğəti. Bakı: ASE Baş redaksiyası. 1986, 114 s.
2. **Бартольд В.В. К вопросу о погребальных обрядах тюрков и монголов** // **Сочинения**. **Т**. IV, Москва: Наука, 1966, 495 с.
3. Cəlilov F.A.. Azər xalqı. Bakı: Çıraq, 2005, 432 s.
4. Дьяконов И.М. История Мидии от древнейших времен до конца IV в. до н.э. Москва: Наука, 1956, 485 s.
5. İrəvan əyalətinin icmal dəftəri. Bakı: Elm, 1996, 184 s.
*6. Кляшторный* С.Г. ***Древнетюркские рунические памятники***. как источник по истории Средней Азии. // Москва: «Наука». 1964. 214 с.
7. Kramer S.N. Tarix Şumerdən başlanır. Bakı: Kasımi, 2009, 280 s.
8. Гейбуллаев Г.А. К этногенезе азербайджанцев. Т. I, Баку: Элм, 1991, 548 с.
9. Малый атлас мира. Москва: Картография ГУГК, 1985, 331 с
10. Мифы народов мира. Энциклопедия. Т. I, Москва: Советская энциклопедия. 1987, 671 с.
11. Мифы народов мира. Энциклопедия. Т. II, Москва: Советская энциклопедия.1988, 719 с.
12. Naxçıvan sancağının müfəssəl dəftəri Bakı: Sabah, 1997, 336 s.
13. Rzayev F.H. An/Anu qədim türk tanrı adının Naxçıvan ərazisi toponimlərində izləri//Elmi əsərlər, Naxçıvan Universiteti, Naxçıvan NU: Nuh, 2018, №2, s. 81-89, 269 s
14. Rzayev F.H. Naxçıvan əhalisinin etnogenezi tarixindən. I c. (m.ö. VI-III minilliklər). Bakı: ADPU nəşriyyatı., 2013, 528 s.
15. Rzayev F.H. Naxçıvan əhalisinin etnogenezi tarixindən. II c. (m.ö. II-I minilliklər). Bakı: ADPU nəşriyyatı., 2017, 588 s.
16. Tuncer Gülensoy. Türkçe Yer Adları Kılavuzu. Ankara: Bizim Büro Basımevi 1995, 103 s.
17. Всемирная история. Т. I, Москва: Госиздат, 1956, 746 с.
18. Yusifov Y. B. Qədim şərq tarixi. Bakı: Bakı Universitet, 1993, 496 s.



***AMEA Naxçıvan Bölməsi**
***İncəsənət, Dil və Ədəbiyyat İnstitutu***
***filologiya üzrə fəlsəfə doktoru, dosent***
***e-mail. firudinrzayev@gmail.com***

**Firudin Rzayev**


## GODS ASSOCIATED WITH THE ANCIENT TURKISH PROTO-TURKS, TRACES IN THE TOPONYMS OF NAKHCHIVAN REGION


The article talks about the traces of the ancient god names Tork, Tork Angex, Tarku in the toponyms of the Nakhchivan area, which have a special place in the ancient Turkish mythical thinking, and which are included in the mythological beliefs of the Türkku Turks. The history of these god myths, mentioned in ancient writings, dates back to BC. Based on the 4th millennium, the toponymic names of the area have survived to this day. The inclusion of this ancient myth in the name of Turku tribe in historical processes, its connection with Nakhchivan has not yet been studied by Azerbaijani and Turkish scientists and the names have not been explained. In the article, the presence of this god's name in the oikonym, hydronym and oronym layers of toponyms of the ancient Nakhchivan area is confirmed on the basis of linguistic and historical facts.

Etymological explanations of toponyms related to this myth in the geographical area of Nakhchivan are given in the study. The fact that the names of the gods Tork, Tork Angex, Tarku remain in the names related to the proto-Turks proves the antiquity of this mythical belief. The place of this name in Azerbaijan, Nakhchivan, Siberia, Avar and other Turks is justified by scientific facts in the article.


**Keywords:** *Tork, Tork Angex, Tarku Azerbaijan, Nakhchivan, Siberia, Avar, oikonym, oronym, hydronym.*

**Фирудин Рзаев**

## СЛЕДЫ ИМЕН БОГИНИИ СВЯЗАННЫЕ С ПРОТОТЮРКОВ ТУРУККИ НА ТЕРРИТОРИИ НАХЧЫВАНСКИХ ТОПОНИМАХ

В статье говорится о следы имен древних богов Торк, Торк Ангех, Тарку в мифологических верованиях тюрков Турукки на территории Нахчыванских топонимах. Истории имени этих мифов опираясь к IV тысячелетиям до н.э. оставили свои следы в древних летописях до наших дней оставили свои имени в топонимах этой территории до нашего дня. В исторических процессах места этого мифа в называние имени племена Турукки, связы его с Нахчыванской земли, до тех пор не были исследованы азербайджанскими и тюркскими учеными и не анализированы значении этих имен. В статье имен этих богов на территории Нахчыванских ойконимах, оронимах и гидронимах подтверждены на основе исторических фактов.

В исследованиях объясняется значении топонимов связанные с этой мифологией на географических ареалах Нахчывана. Существование топонимы с именем богов Торк, Торк Ангех, Тарку подтверждает древность веровании этого мифа. Места этого имена в тюрках Азербайджане Нахчывана, Сибир, Авар в том числе в и других тюрках обосновывается научными фактами.

**Ключевые слова:** *Торк, Торк Ангех, Тарку Азербайджан, Нахчыван, Сибир, Авар, ойконим, ороним, гидроним.*

*AMEA-nın müxbir üzvü Əbülfәz Quliyev tәrәfindәn tәqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 18.01.2024**
**Son daxilolma tarixi:02.03.2024**